Funded by the European Union

# XƏBƏR BÜLLETENİ

AZƏRBAYCANDA YOL HƏRƏKƏTININ TƏHLÜKƏSIZLIYININ GÜCLƏNDIRILMƏSI

NO. 2/2023




## TVINNINQ LAYIHƏSININ AÇILIŞ KONFRANSI

Tvinninq layihəsinin açılış konfransı 3 mart 2023-cü il tarixində Bakıda, Azərbaycanda baş tutub. Tədbirdə Azərbaycan, Polşa və Litvanın qurumlarını təmsil edən yüksək səviyyəli rəsmilər iştirak ediblər. Açılış konfransı Tvininq layihəsində mühüm mərhələni təmsil edir və maraqlı tərəflərin bir araya gəlməsi və uğurlu tərəfdaşlıq üçün zəmin yaradılması üçün fürsətdir.

Benefisiar Ölkənin əsas maraqlı tərəfləri, Avropa İttifaqına Üzv Dövlətlərin səlahiyyətli nümayəndələri, Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi, Tvinninq icraçı tərəfdaşları, Polşada yerləşən Avropa İttifaqının Nəqliyyat Layihələri Mərkəzi (CEUTP) – layihənin icrası, əməkdaşlığın gücləndirilməsi və ümumi fəaliyyətlə bağlı icmallarını bölüşüblər. Layihənin əhatə dairəsini Tvinninq üzrə Rezident Məsləhətçisi və Polşa və Litvadan olan ekspertlər təqdim ediblər.

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Naziri **cənab Rəşad Nəbiyev** çıxışında layihənin Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019–2023-cü illər üçün Dövlət Proqramı”nın bir sıra müddəalarını özündə əks etdirdiyini vurğulayaraq, bu mühüm layihəni maliyyələşdirdiyinə görə Avropa İttifaqına

## ƏLAQƏ MƏLUMATI


Avropa İttifaqı Nəqliyyat Layihələri Mərkəzi
Plac Europejski 2, 00–844 Varşava, Polşa
Telefon: +48 22 262 05 37
E-poçt: cupt@cupt.gov.pl
kgrot@cupt.gov.pl

Rezident Tvinninq Məsləhətçisinin Ofisi
Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi
E-poçt: ejaszczuk@cupt.gov.pl,
twinning-az@cupt.gov.pl
Tel: +994 55 418 49 87
Zərifə Əliyeva küçəsi 77, Bakı, AZ1000 Azərbaycan


**LAYIHƏNIN MÜDDƏTI:**

OKTYABR 2022-CI IL
– OKTYABR 2024-CÜ IL

AZƏRBAYCANDA YOL HƏRƏKƏTİ TƏHLÜKƏSİZLİYİNİN GÜCLƏNDİRİLMƏSİ

minnətdarlığını bildirib. Layihə Azərbaycanda idarəetmənin, əlaqələndirilmənin təkmilləşdirilməsi və yol hərəkəti təhlükəsizliyi məsələlərinin həlli baxımından böyük əhəmiyyət kəsb edir.

Polşa Respublikasının infrastruktur nazirinin müavini **cənab Andrzej Bittel**, Polşanın yol təhlükəsizliyi sahəsində əldə etdiyi mühüm nailiyyətlər barədə məlumat verib. O bildirib ki, Avropa Komissiyasının 2023-cü ilin fevralına olan məlumatlarına əsasən, yol qəzaları zamanı ölüm hallarında ən çox azalma, 2019-cu illə müqayisədə 30 faizdən çox Polşada qeydə alınıb.

Avropa İttifaqının Nəqliyyat Layihələri Mərkəzinin Direktoru **xanım Joanna Lech**, əlavə etdi: “CEUTP və bütün layihə tərəfdaşları yol hərəkətinin təhlükəsizliyinin əsas təsir sahələrində, yəni bütün Təhlükəsiz Sistemin sütunlarında qanunvericilik, texnologiya, icra və təhsil sahələrində təcrübələrini bölüşməyə və töhfə verməyə hazırdırlar. Yol hərəkətinin təhlükəsizliyi bir çox maraqlı tərəflərdən insanlar tərəfindən ediləcək səhvlərin daha bağışlanan olması uğrunda ümümi bir sistemin qurulması üçün yaxşı təşkil olunmuş hərəkətlər tələb edir.




## KOMPONENT 1 ÇƏRÇIVƏSINDƏ FƏALIYYƏT 1.1.1 ÜZRƏ TVINNINQ MISSIYASI

20-23 fevral 2023-cü il tarixlərində 1.1.1-ci Fəaliyyət “Yol hərəkəti təhlükəsizliyinə dair qanunvericilik aktları ilə bağlı boşluqlar və tövsiyələr üzrə qiymətləndirmə hesabatı və qiymətləndirmə hesabatından irəli gələn tövsiyələrinin icrası üçün dəqiq vaxt çərçivəsi olan yol xəritəsi” üzrə ilk missiya həyata keçirilmişdir. Bu missiya layihə çərçivəsində Azərbaycanda yol hərəkətinin təhlükəsizliyinin gücləndirilməsi istiqamətində atılan mühüm addımdır.

Missiya zamanı Litva Nəqliyyat Təhlükəsizliyi Administrasiyası, Litva Respublikasının Nəqliyyat və Rabitə Nazirliyi və Polşa Respublikasının Regional Nəqliyyat Müfəttişliyinin ekspertləri yol hərəkətinin təhlükəsizliyi ilə bağlı qanunvericiliyin müxtəlif sahələrinə diqqət yetirmişlər. Yük və sərnişin daşımaları, nəqliyyat vasitələrinin təhlükəsizliyi tələbləri, nəqliyyat vasitələrinə texniki xidmət sistemləri, elektrik və avtonom nəqliyyat vasitələri yol hərəkətinin təhlükəsizliyinin təmin olunmasında nəzərə alınmalı olan mühüm sahələrdir.

Daxili İşlər Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Gömrük Komitəsi, Bakı Nəqliyyat Agentliyi, Azərbaycan Yerüstü Nəqliyyatı Agentliyi də daxil olmaqla bir çox maraqlı tərəflərlə görüşlərdə iştirak etməklə və Azərbaycan Respublikasının hüquqi aktlarını tədqiq edərək onları Avropa İttifaqının normativləri ilə müqayisə etməklə ekspertlər mövcud vəziyyət haqqında hərtərəfli anlayış əldə edə və təkmilləşdirilməsi üçün potensial sahələri müəyyən edə bildilər. Bu, yol hərəkətinin təhlükəsizliyinin yaxşılaşdırılması üçün Azərbaycanda qanunvericilik bazasının aktual və effektiv olmasını təmin etməyə kömək edir.



# ASAN RADIODA “RƏQƏMSAL DIALOQ”

Fevralın 27-də Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Beynəlxalq Əməkdaşlıq şöbəsinin müdiri Şahin İsmayılov və Tvinninq Layihəsi üzrə Rezident Tvinninq Məsləhətçisi xanım Ədıta Yaşçuk Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin ASAN Radio ilə birgə layihəsi olan “Rəqəmsal Dialoq” radio proqramının qonağı oldular.

Proqram zamanı xanım Yaşçuk və cənab İsmayılov Tvinninq Layihəsi və qlobal kontekstdə yol hərəkətinin təhlükəsizliyinin əhəmiyyəti haqqında ətraflı məlumat verdilər.

Proqramda yaşından, cinsindən və sosial-iqtisadi vəziyyətindən asılı olmayaraq hər kəsə təsir edən kritik problem kimi yol hərəkətinin təhlükəsizliyinin əhəmiyyəti xüsusilə qeyd edildi. Qonaqlar yol-nəqliyyat hadisələrinin qarşısının alınmasının və effektiv siyasət və tədbirlərin həyata keçirilməsi nəticəsində hadisələrin sayının azaldılmasının mümkünlüyünü vurğuladılar. Proqram zamanı həmçinin yol hərəkətinin təhlükəsizliyi kimi mürəkkəb problemlərin həllində beynəlxalq əməkdaşlığın və bilik mübadiləsinin əhəmiyyəti nümayiş etdirildi.



# BE A GOOD HOST ON THE ROADS!



Bu nəşr Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanmışdır. Bu nəşrin məzmununa görə məsuliyyəti yalnız "Azərbaycanda Yol Hərəkətinin Təhlükəsizliyinin Gücləndirilməsi" Tvinninq Layihəsi daşıyır və Avropa İttifaqının mövqeyini əks etdirmir

## KOMPONENT 2 ÇƏRÇIVƏSINDƏ FƏALIYYƏT 2.3.1 ÜZRƏ TVINNINQ MISSIYASI

28-31 mart 2023-cü il tarixlərində “Mövcud yol hərəkəti təhlükəsizliyi tədbirlərinin planlaşdırılması, monitorinqi, qiymətləndirilməsi proseslərinə yenidən baxılması, planlaşdırma və izləmə metodologiyası təklifinin işlənib hazırlanması” adlı fəaliyyət çərçivəsində onlayn missiya keçirilib.




Missiyanın yekun məqsədi yol hərəkəti təhlükəsizliyinə cavabdeh olan bütün müvafiq tərəfdaşlar arasında koordinasiya və əməkdaşlığı təkmilləşdirməklə Azərbaycanda effektiv Yol Hərəkəti Təhlükəsizliyi üzrə İdarəetmə sisteminin yaradılmasıdır.

4 günlük onlayn missiyanın hər günü Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Elm və Təhsil Nazirliyi kimi müxtəlif nazirliklərin yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsində çıxış etdiyi rola həsr olunmuşdu.

Azərbaycan, Polşa və Litvanın qurumlarının nümayəndələri ilə keçirilən uğurlu görüş ümumi məqsədə, Azərbaycanda yol hərəkətinin təhlükəsizliyinin gücləndirilməsinə, nail olmaq üçün müxtəlif ölkələr və təşkilatlar arasında səmərəli əməkdaşlığın mövcudluğunun göstəricisidir.